AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan İKT sahəsində Malayziya ilə əməkdaşlığa xüsusi önəm verir



Aprelin 12-də Milli Məclisin Sədri Oqtay Əsədov Malayziya parlamentinin Nümayəndələr Palatasının sədr müavini, Malayziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Seri Ronald Kiandee ilə görüşüb. Görüşdə Azərbaycan-Malayziya əlaqələri barədə fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, bu səfər ölkələr və parlamentlərarası əlaqələrin inkişafına yeni təkan verəcək. O.Əsədov Malayziya parlamentində Azərbaycanla dostluq qrupunun yaradılmasını çox yüksək qiymətləndirib. Qeyd edib ki, bu qrup ümumi əlaqələrin inkişafında mühüm rol oynayacaq. Bundan başqa, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri də münasibətlərin inkişafında müstəsna rola malikdir.

Görüşdə vurğulanıb ki, Azərbaycanın Malayziya ilə siyasi sahədə əlaqələri yüksək səviyyədədir. Bu günədək iki ölkə arasında 7 sənəd imzalanıb, 18 sənəd imzalanma ərəfəsindədir. Bununla belə, iqtisadi sahədə müəyyən inkişaf tempi olsa da, ticarət dövriyyəmiz hər iki ölkənin potensialından aşağıdır. Beynəlxalq təşkilatlarda da hər iki ölkənin həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığı mövcuddur.

Fikir mübadiləsi zamanı informasiya-kommunikasiya texnologiyaları sahəsində olan əməkdaşlıqdan da söz açılıb. Bildirilib ki, Azərbaycanın ilk peyki hazırda İKT sahəsi üzrə Malayziyanın orbital mövqeyində fəaliyyət göstərir. Bu sahədə Malayziya geniş təcrübəyə malikdir. Odur ki, Azərbaycan bu istiqamətdə əlaqələri inkişaf etdirməkdə xüsusilə maraqlıdır. Beynəlxalq layihələr sayılan TAP və TANAP barədə də qonaqlara məlumat verilib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi və Xocalı soyqırımı barədə ətraflı söz açılıb. Bildirilib ki, dünyanın 15 ölkəsi, ABŞ-ın 20-dən artıq ştatı bu soyqırımını tanımaqla bağlı sənəd qəbul edib. Bu məsələyə Malayziya parlamenti də münasibət bildirsə yaxşı olar.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto)***
***"Azərbaycan"***